# "Azərbaycanfilm" kinostudiyasında Vətən müharibəsi haqqında filmlər çəkilir

❒ ***Kinostudiyanın direktoru Fariz Əhmədov bizimlə söhbətində bildirdi ki, hazırda studiyamızın çəkdiyi filmlərin əsas mövzusu İkinci Qarabağ müharibəsi ilə bağlıdır. Bakı Media Mərkəzi ilə birgə hazırladığımız "Biz" adlı sənədli film də bu mövzudadır.***



Filmdə 44 günlük Vətən müharibəsi dövründə öz telefonlarında videoçəkilişləri ilə trendə düşmüş döyüşçülərdən bəhs olunur. Artıq çəkilişlər sona çatıb. Rejissoru Orman Əliyev olan sənədli film montaj prosesindədir və noyabr ayınadək təhvil verməyi düşünürük. Elçin Musaoğlunun "Məryəm" filmi də istehsaldadır. İlin sonuna qədər bu film də təhvil veriləcək. Bundan əlavə, rejissor Vaqif Mustafayevə "Fəryad–2" filminin ssenarisini sifariş etmişik və həmin filmin də istehsalı ilə bağlı Mədəniyyət Nazirliyi ilə danışıqlar gedir.

Direktor əlavə etdi ki, İctimai Televiziya ilə həftəlik birgə layihə də reallaşdırılır: "İctimai Televiziya bizim yayım dəstəkçimiz olmaqla 24 buraxılışdan ibarət "Bizim kino" adlı verilişi tamaşaçılara təqdim edir. 6 ay efirdə olacaq layihənin artıq 4 verilişi yayımlanıb. Bu layihə 15-20 dəqiqə olmaqla sənədli film formasında kinonun 24 müxtəlif sahəsinə həsr olunmuş silsilə verilişlərdir. Həmçinin 17 klassik Azərbaycan filminin subtitrlərinin hazırlanması ilə məşğuluq. Bu prosesdən sonra ingilisdilli tamaşaçılar filmlərimizi rahat şəkildə izləyə biləcəklər".

Ötən il İctimai Televiziya ilə "Anamın kitabı" layihəsini reallaşdırdıqlarını bildirən kinostudiyanın direktoru qeyd etdi ki, bu il "Nizami Gəncəvi ili" ilə əlaqədar yeni layihə də hazırlanır. Bu, 12 seriyadan ibarət film olacaq. Seriallarla bağlı hazırda AzTV ilə danışıqlarımız davam edir.

***Qələmə aldı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2021.- 15 aprel.- S.7.